DOI:10.30546/gdu.2023.193-197

UOT:37.

# TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜƏLLİMİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ROLU

***Məmmədtağıyeva Gövhər Arzuman qızı***
***Bakı Dövlət Universiteti Qazax filialı***
***qovharmammadtağıyeva @ qmail.com***

***Xülasə:*** *Məqalədə təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına aid bəzi mülahizələrdən bəhs edilir. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətləri ilə bağlı müəyyən fikirlər söylənilir.Dərs zamanı şagird tədqiqatçı mövqeyində çıxış edir. O, müstəqil araşdırma aparır. Bu heç də müəllimin rolunu azaltmır. Müəllim burada yol göstərən, şagirdləri istiqamətləndirən və fəallaşdıran, onların biliklərə yiyələnmələrinin iştirakçısı rolunu oynayır.*

**Açar sözlər:** təhsil, təhsilin keyfiyyəti, təhsildə peşəkarlıq, qabaqcıl təcrübə, pedaqoji təcrübə.

**Ключевые слова:** образование, качественное обучение, профессиональное обучение, передовой опыт, практическое обучение.

**Key words:** education, quality education, professional education, advanced experiment, experiment education.

XXI əsrdə bütün sahələrdə olduğu kimi təhsil sistemində də qloballaşma gedir. Bu qloballaşmanın mahiyyətini yaddaş məktəbindən təfəkkür məktəbinə keçid təşkil edir. İnkişaf etmiş ölkələrin təcrübəsindən görünür ki, məktəbdə hər bir dərsə təhsilalanlar üçün təfəkkür və intellekt məkanı kimi baxılır. Bu məqsədlə müasir təlim metodlarının düzgün və məqsədyönlü tətbiqi başlıca şərt hesab edilir.

Müasir dövrdə yeni texnologiyaların, yeni təlim metodlarının tətbiqi müəllimin iş üsulunu şagirdlərin bilik almaq üçün müstəqil axtarışlar aparmalarına, yaradıcı fəaliyyətlərinə, təfəkkürə istinad etmələrinə, öyrənmə maraqlarına uyğun müəyyənləşdirməyi zəruri edir. Təhsilin indiki mərhələsində əsas diqqət uşağın şəxsiyyətinin inkişafına verilir. Bu özünü nədə göstərir? Şəxsiyyətin təhsilin ibtidai mərhələsindən başlayaraq inkişafını təmin etməkdə, oxumaq, yazmaq bacarığı və vərdişlərini əldə etməkdə, təfəkkürə, nitqin inkişafına, sağlam həyat tərzi elementlərinə yiyələnməkdə göstərir.

Tədris prosesində müxtəlif iş formalarından, yeni interaktiv təlim üsullarından istifadə olunması müasir tələblərdən irəli gəlir. Müəllim nəzərə almalıdır ki, hər bir mövzunun qavranılması, yüksək təlim nəticələrinin əldə edilməsi, ilk növbədə dərsdə öyrədici mühitin formalaşması ilə sıx bağlıdır. Öyrədici mühit elə təşkil edilməlidir ki, şagird müstəqil şəkildə fərziyyələr irəli sürə bilsin, tədris zamanı əldə etdiyi biliyi real həyatla əlaqələndirməyi bacarsın. Bu mühit elə təşkil olunmalıdır ki, bütün şagirdlərin əməkdaşlığına yeni biliklərin mənimsədilməsi və tətbiq edilməsinə şərait yaradılsın. Tədris prosesində şagird bilik əldə etmək, ünsiyyət qurmaq, əməkdaşlıq etmək üçün çətinlik çəkməməli, təlim metodlarından düzgün istifadə edərək gələcək inkişafı üçün maksimum imkanlar əldə etməlidir. [2].

Məlumdur ki, təhsil sisteminin strukturunu, məzmununu, forma və metodlarını dəyişdirmək son dərəcə mürəkkəb bir prosesdir. Veriləcək biliyin həcmi, onların mənimsədilməsi yolları və s. aktual olaraq qalır. Indi milli – mənəvi, əxlaqi dəyərlər başlıca məsələdir. Təhsil özü də mədəni – tarixi əsaslara söykənməlidir. Bu, heç də yaşlı nəslin sosiomədəni təcrübəsinin, dünyagörüşünün mexaniki şəkildə gənc nəslə ötürülməsi mənasında başa düşülməməlidir. Bunlarla yanaşı, dövrün tələblərinə uyğun fəal, çevik, yaradıcı təfəkkürə malik şəxsiyyətlər formalaşdırılmalıdır. Bu isə fasiləsiz təhsil, özünütəhsil, özünüreallaşdırma, özünütəsdiq sayəsində mümkündür.

DOI:10.30546/gdu.2023.193-197

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktybr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda [1] göstərilir ki, strateji istiqamətlərdən biri də "təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur". Göstərilir ki, təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik - əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır. Göründüyü kimi, strategiyada başlıca hədəf insandır, onun inkişafıdır və nəticədə bütövlükdə cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsidir. Bunların həyata keçirilməsi elm və təhsilin vəhdətdə fəaliyyətindən asılıdır.

Dünyada qəbul olunmuşdur ki, istənilən dövlətin inkişafı onun təhsil sisteminin keyfiyyətindən asılıdır. Keyfiyyətin təmin edilməsi üçün: yaxşı müəllimlər, yüksək mənəvi dəyərlər, əla imtahan nəticələri,valideynlərin, ictimaiyyətin dəstəyi, geniş resurslar, müasir texnologiyanın tətbiqi, güclü və məqsədyönlü liderlik, şagirdlərin qayğısına qalan məktəb, balanslaşdırılmış və mükəmməl tərtib olunmuş kurikulum və b. zəruridir.

Ənənəvi məktəb proqramı düşüncəni yox, təkrarı, əzbərləməni aşılayır, proqramlar tələbata uyğun gəlmir, sosial sifariş nəzərə alınmır, təhsilin hədəfləri bu günün tələbləri ilə uzlaşmır. Ona görə də hazırda proqramların yenidən işlənməsi, tədris planında dəyişikliklərin aparılması, təhsilin beynəlxalq təhsilə uyğun formalaşdırılması, inteqrativ təhsilin inkişafı bu günün zəruri tələbatıdır. Bu gün təhsildə dəyişkənlik məntiqi təfəkkürün inkişafına xidmət edən məzmu kəsb etməlidir.

Müasir dövr yüksək ixtisaslı elmi-nəzəri və metodik cəhətdən yetkin və səriştəli müəllim kadrları tələb edir. Belə kadrlar olmasa, məktəbin fəaliyyətini pedaqoji cəhətdən məqsədəuyğun şəkildə təşkil etmək təlim – tərbiyənin keyfiyyətini günün tələbləri səviyyəsinə qaldırmaq mümkün deyil. Elm və Təhsil nazirliyi bunu nəzərə alır, müəllimlərin diaqnostik qiymətləndirilməsi də bu məqsədə xidmət edir. Müəllimlərin elmi – nəzəri və praktik səviyyəsinin yüksəldilməsinə kömək edən amillərdən biri də məktəbdə müəllimlərlə aparılan metodik işlərin səmərəli təşkilidir. Məktəbdə müəllimlərlə aparılan metodik işin məzmunu İKT- nin imkanlarından, internet resurslarını tədris prosesinə tətbiqi bacarıqlarından, treninq və kurslarda fəal iştirakından, məruzə, çıxış və məqalələrin yazılmasından, metodik ustalığın artırılmasından, sinif müəllimlərinin, sinif rəhbərlərinin, fənn komissiyaları və metodbirləşmə rəhbərlərinin, açıq dərslərdə qabaqcıl iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsindən, dərslik, metodik vəsaitlərin müzakirəsində müəllimlərin fəaliyyətini əks etdirən sərgilərin keçirilməsindən və müxtəlif xarakterli işlərdə onların iştirakının təmin olunmasından ibarətdir. Məktəbdə metodik işin təşkilində fənn komissiyalarında idarəetmə məsuliyyətinin fəaliyyətə görə bölüşdürülməsi əhəmiyyətli nəticə verir. Qazax rayon məktəblərində aparılan müşahidələr və söhbətlər də göstərir ki, idarəetmə işinin səmərəli təşkili məqsədi ilə ayrı – ayrı fənn metodbirləşmələrindən ibarət metodkomissiyalar yaradılmış, onların fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Qeyd edilən rayon məktəblərinin təcrübəsinə əsaslanıb demək olar ki, üç texnologiya: məqsədə görə idarəetmə, prosesə görə idarəetmə və nəticəyə görə idarəetmə təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Bu zaman ona diqqət yetirmək lazımdır ki, müəllim şəxsiyyətində təhsilin keyfiyyətinin yüksəldilməsi, yəni öyrənənin tələb etdiyi səviyyədə biliklər, bacarıqlar və müvafiq keyfiyyətlər təmin edilsin. Öyrənən səviyyədə təhsilin keyfiyyəti isə təhsilin məzmununun fəaliyyət üsullarının və s. mənimsəmə dərəcəsinə görə başa düşülməsi deməkdir.

Peşəkarlıq müəllimin yalnız ixtisasını yaxşı bilməsi və öyrətməsi deyildir. Peşəkarlıq müəllimlik peşəsinin incəliklərini dərindən bilmək, pedaqoji situasiyanı əvvəlcədən duymaq, qiymətləndirmək və öz mövqeyini müəyyənləşdirməkdir. Peşəkar müəllim yaradıcı fəaliyyət

DOI:10.30546/gdu.2023.193-197

göstərir, cəmiyyətdə öz peşəsinin nüfuzunu, şərəfini daim yüksəldir, yetişdirdiyi şagirdlərin bir şəxsiyyət, bir ləyaqətli insan kimi formalaşmasına şalışır.

Müəllim peşəkarlığı birdən – birə deyil, pedaqoji təcrübələr, vəziyyətlər, çalışmalar vasitəsi ilə, damla – damla meydana gələrək inkişaf edir. Peşəkarlıq – müəllimin pedaqoji fəaliyyətini stabil olaraq yüksək səviyyədə qurması, öz yetişdirmələrinin təlim və tərbiyə işində daim uğurlu fəaliyyəti deməkdir. Peşəkarlıq müəllimin elə bir xarakterik xüsusiyyətidir ki, o, özünəməxsus bir dünyagörüşə sahibdir, pedaqoji situasiyalara yeri gələndə qeyri – standart yanaşır və hər cür çətin pedaqoji situasiyalardan uğurla çıxa bilir. Şəxsi keyfiyyətlərə gəldikdə müəllimin işguzarlığı, proseslərə yaradıcı yanaşması, müstəqil qərar çıxarması, özünəinamı, insanlara nikbin və humanist münasibətləri diqqəti cəlb edir. Təlimdə keyfiyyətin əldə olunması üçün müəllimin pedaqoji prosesin psixoloji xüsusiyyətlərini dərindən bilməsi vacibdir.

Araşdırmalar göstərir ki, şagirdin bilik və bacarıqların mənimsənilməsinə yönələn istənilən fəaliyyəti öz əksini onun şüurunda tapır. Bu səbəbdən müəllim dərsdə idraki fəallığın bütün üsul və vasitələrindən istifadə etməyə çalışır. Son dövrlərdə yeni təhsil informasiya texnologiyalarının tətbiqi elm və texnikanın sürətli inkişafı ilə əlaqədatdır. Belə texnologiyalardan istifadə etməklə məlumatın verilmə sürətini artırmaq, bilik, bacarıq və vərdişlərin formalaşmasını daha möhkəm və əsaslı etmək mümkündür.

İnformasiya müasir dünyanın əsas dəyəridir. Biz informasiya axını şəraitində yaşayırıq. İnformasiya ilə səmərəli şəkildə işləmək bacarığına malik insan müasir dünyada istənilən məlumatı yaradıcı və tənqidi emal edərək səmərəli fəaliyyət göstərə bilər. Şagirdin idrak fəaliyyətinin aktivləşməsi, əsasən müasir dərsin ilkin mərhələsində - motivasiya mərhələsində reallaşır. Çünki əsas problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün, ilk növbədə dərsdə mövzunun mənimsənilməsinə xidmət edən tədqiqat sualları düzgün və məntiqli tərtib olunmalıdır. Problem və tədqiqat sualı yeni biliklərin əldə olunmasına aparan "bələdçi" rolunu oynayır. Bu istiqamətdə şagirdlərdə təhsilin məzmun elementləri formalaşdıqca onların şəxsiyyət keyfiyyətləri də artır. Deməli əsas məqsəd həyata keçir. Şagird qrup tərkibində, həmyaşıdlar şəraitində yeni nailiyyətlər qazanır, öyrənir, rəqabətə girir və əhəmiyyətli tərəf olaraq qrupun üzvü kimi formalaşır. Digər tərəfdən şagirdlər öz sinif yoldaşları ilə qarşılıqlı münasibətlərdə dönüş yaradır. Yəni qrupdaxili qarşılıqlı münasibətlərdə məzmun dəyişiklikləri baş verir. Qrup daxilində birgə fəaliyyət aparıcı olsa da, müəyyən mənada şagird – şagird münasibətlərinin məzmunu şəxsi sosial münasibətlərin məzmunundan qaynaqlanır[3].

Müasir dövrdə elm və texnikanın sürətli inkişafı insanları heyrətləndirməkdə davam edir. Qısa zaman kəsiyində elmdə elə böyük kəşf və ixtiralar edilir ki, dünən yenilik sayılanlar bu gün üçün artıq köhnəlmiş hesab edilir. Ona görə də şagirdlərdə praktik vərdişlərin və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi müəllimlərin qarşısında duran həlli vacib məsələlərdəndir. Öyrədici, tərbiyəedici və inkişafetdirici təlim məqsədləri olan təhsil sistemimiz şagirdlərin yaradıcı təfəkkürünün davamlı inkişafı üçün sistemli iş aparılmasına təminat verir.

Şagirdlərdə yaradıcı təfəkkürün inkişafına çox böyük önəm verən və bu istiqamətdə tədqiqatlar aparan görkəmli psixoloq Ə.Əlizadə qeyd edirdi ki, " XXI yüzillik ağlın, intellektin təntənəsi əsridir. Müstəqillik yoluna çıxmış respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intellekt məktəbi olmasını tələb edir". Yeni təhsil proqramı olan kurikulumun tətbiqi təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiyası və yaradıcı təfəkkürə malik olan şagirdlərin yüksək səviyyədə hazırlanması üçün geniş imkanlar açır. Təlimin məzmununa uyğun olaraq bacarıqlar qazanmaq və onu müxtəlif situasiyalarda tətbiq etmək üçün təlimin forma və metodları elə seçilməlidir ki, şagirdlər

DOI:10.30546/gdu.2023.193-197

düşünməyə və yaradıcı fəaliyyətə sövq edilsin. Məktəblilərin təfəkkürünün inkişafına təkan vermək, yerli və beynəlxalq olimpiada və bilik yarışlarında iştirak təcrübəsi qazandırmaq, istedadlı, xüsusilə yüksək məntiqi təfəkkürə malik şagirdləri vaxtında aşkara çıxarmaq üçün onları daim həvəsləndirmək və elmə olan marağını artırmaq təhsilin əsas hədəflərindəndir.

Şagirdlərin biliyi mənimsəmə prosesi necə gedir, müəllimin verdiyi bilik onların beynində necə həkk olunur? Keçən əsrin ortalarında görkəmli psixoloq P.Y.Qalperin bu suala cavab vermişdir. Qalperinə görə, insanlar hər bir əqli fəaliyyəti mərhələlər üzrə öyrənir. Birinci mərhələdə insanlar onun üçün yeni olan fəaliyyətə istiqamət götürür, baxır ki, o, hansı əməliyyatlardan ibarətdir. İkinci mərhələdə o, bu əməliyyatı yerinə yetirmək üçün sınaqdan keçirir, bu zaman hər bir addımın düzgünlüyü yoxlanılır. Bununla əlaqədar olaraq Qalperin əqli fəaliyyəti aşağıdakı mərhələlər üzrə yerinə yetirməyi tövsiyə edir:

-şagirdləri yeni fəaliyyətə istiqamətləndirmək;

-fəaliyyətin maddi (maddiləşmiş) yerinə yetirilməsi;

-daxili planda fəaliyyət.

Müəllimlər üçün Qalperinin aşağıdakı tələbi daha çox mühümdür: Əgər göstərilən mərhələlərdən birini şagird mənimsəyə bilməyibsə, onda onu əvvəlki mərhələyə qaytarmaq lazımdır. Nəzərə alınmalıdır ki, ikinci mərhələdən üçüncü mərhələyə keçid (daxili planda fəaliyyət) heç də asan deyildir.Qalperin onu yerinə yetirmək üçün əlavə mərhələlər göstərir: xarici nitq və daxili nitq.

Hazırda bəşəri dəyərlərdən daha çox bəhrələnmək, faydalanmaq sahəsində yeni bir mərhələ başlayır. Tədrisin demokratikləşdirilməsi, humanistləşdirilməsi, yeni pedaqoji təfəkkürün formalaşması təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu iş həm müəllim – şagird münasibətləri ilə, həm də müəllimin öz təhsili ilə əlaqədardər. Müəllimlərin müntəzəm olaraq ixtisasının artırılması, onların öz bilik və bacarıqlarını şagirdlərə çatdırma metodlarının təkmilləşdirilməsi bu yeniləşmədə başlıca amillərdəndir.

Təcrübə və araşdırmalar göstərir ki, müasir dövrdə təhsilin keyfiyyətinin artırılması problemi ilə bərabər innovativ fəaliyyətin keyfiyyətinin yüksəldilməsi diqqəti xüsusilə cəlb edir. Əslində innovativ fəaliyyətin keyfiyyətinin artırılması aktuallıq baxımından daha çox əhəmiyyətlidir. Çünki təhsilin keyfiyyətinin yüksəldilməsi birbaşa təhsil fəaliyyətinin innovativliyi ilə bağlıdır.

Şagirdlərin fikirlərinə hörmətlə yanaşmaq, onlara düzgün istiqamət vermək hər bir müəllimin peşə borcudur. Qarşıya çıxan çətinliklərin düzgün diaqnozu onun pedaqoji ustalığından asılıdır. Bu, ayrı – ayrı situasiyalarda düzgün qərar qəbul etməyə imkan verir. Təşkilatçılıq bacarığı, vaxtdan səmərəli surətdə istifadə etməkdə, planlı şəkildə hərəkət etməkdə önəmli yer tutur.

Şagirdlərin təsəvvürlərində yaratdıqları müəllim obrazını öyrənmək üçün aparılan sorğulardan belə nəticəyə gəlmək olar ki, əksər uşaqlara görə əsl müəllim dərs prosesində müasir təlim metodlarından, informasiya – kommunikasiya texnologiyalarından düzgün və səmərəli istifadə edən müəllimdir. Çünki informasiya – kommunikasiya texnologiyalarının tədris prosesində tətbiqi bu gün qloballaşan dünyanın, informasiyalı cəmiyyətin zəruri tələblərindən və ehtiyaclarından irəli gəlir. İKT tədris prosesində yeni ünsiyyət formalarını meydana çıxarır, “müəllim – şagird”, “şagird – şagird” əməkdaşlığının tənzimlənməsi üçün əlverişli şərait yaradır.

Müasir dövr zamanın tələbinə uyğun olaraq müəllimin qarşısına yeni tələblər qoyur. İndiki şəraitdə müəllimin vəzifəsini lazımi tələblər səviyyəsində yerinə yetirməsi onun nəzəri hazırlığından, yetkinliyindən, yenilikləri qəbul etmək səriştəliyindən asılıdır. Yeni dövrdə tədris etdiyi fənnin əsaslarını bilməklə bərabər müasir vəziyyəti, ictimai – sosial tərəqqini dərk edən, bu tərəqqidə fənnin, öyrəndiklərinin rolunu göstərmək bacarığı olan, geniş

DOI:10.30546/gdu.2023.193-197

dünyagörüşünə,öyrətdikləri uşaq və gənclərin psixologiyasına yaxşı bələd olan, öz fəaliyyətinə yaradıcı yanaşan müəllimin işi səmərəli ola bilər. Dərsin təşkili zamanı elə metodlar seçilib tətbiq edilməlidir ki,şagirdlərin müstəqil təfəkkürünün inkişafına şərait yaratmaq, idrak qabiliyyətini inkişaf etdirmək mümkün olsun. Məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafına, öyrənənlərin hadisə və faktlardan müstəqil və əqli nəticə çıxarmaq bacarığının formalaşmasına zəmin yaradılmalıdır. Müşahidələr göstərir ki, müstəqil mühakimə yürükmək qabiliyyəti, elmi mübahisə aparmaq bacarığı prosesində əsas ünsür dialoq olarsa, bu tədrisin müasir tələblər səviyyəsində qurulmasına gətirib çıxarar.

***Ədəbiyyat***

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". //Azərbaycan məktəbi, 2013 №5. Səh.5-17.
2. Paşayeva P. Yeni təlim metodlarından istifadə zamanı müəllimin fəaliyyəti. //Azərbaycan məktəbi, 2017 №1. Səh.82-84.
3. Cəfərov S. Sagird şəxsiyyətinin sosiallaşması prosesində müasir təlim metodlarının rotasiyası. //Azərbaycan məktəbi, 2018 №2. Səh.61-74.
4. Əliyev B. və b. Pedaqoji psixologiya. Dərslik. Bakı., 2011. Səh.76-80.

## СУЖДЕНИЕ О ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

***Мамедтагиева Говхар Арзуман кызы***

***Резюме***

В статье рассматриваются некоторые соображения относительно качества образования. Показаны определенные взгляды на основные направления Государственной Стратегии в развитии образования.

## THE ARGUMENTS ARE ON THE INCREASE OF QUALITY EDUCATION

***Mammedtaqieva Govhar Arzuman***

***Summary***

The article considers some considerations regardinq the quality of education. Certain looks are shown to basic directions of State Strategy in development of education in Azerbaijan Republik.

***Rəyçi: prof. İbrahimov Cəfər***
***Təhsilin pedaqogikası və metodikası kafedrasının 5 iyul 2023-cü il tarixli iclsın 14 saylı protokolu***
***Daxil olma tarixi 17 iyul 2023-cü il***